# Palıd ağacı və qamışlar

**Çay kənarındakı sıx meşəliyin ən iri gövdəli və hündür ağacı qoca palıd idi. O, gecə-gündüz fəxrlə arxasında qalan meşəni və qarşısından xumarlana-xumarlana axan çayı seyr edərdi. Yeni boy atan ağac və kollara lovğa-lovğa özündən danışar, hündür boyu və iri cüssəsi ilə qürrələnərdi.**

Çayın palıda yaxın sahillərində boy atmış qamışlar palıdın bu lovğalığından təngə gəlmişdilər. Palıd durmadan iri və qüvvətli budaqlarını onların başı üzərində silkələyərək, qüdrətini göstərirdi:

- Mən bu meşənin ən güclüsü və ən hündürüyəm. Heç nə məni yıxa, məhv edə bilməz. Məni kökümdən qoparmaq heç kimə qismət olmayacaq.

Onun bu lovğa sözlərini eşidən qamışlar dediklərinə etiraz edə bilməsələr də, dedilər:

- Eh, qoca və güclü palıd! Öz qüvvən və böyüklüyünlə bu qədər lovğalanma. Bu dünyada heç nə ölümsüz və sonsuz deyil. Sadəlik və təvazkarlıq ən güclü olmağın açarıdır.

- Ehh, çəlimsiz və zəif qamışlar! Siz axı hardan bilərsiniz ki, güc və güclü olmaq nədir? Hardan biləsiniz ki, bu böyüklükdə meşənin, bu qədər cəngəlliyin ən güclü ağacı olmaq necə hissdir.



Qamışların ona veriləcək cavabı olmadığından palıd daha da lovğa bir görkəm alaraq, budaqlarını dörd bir yana yellədi. Beləcə uzun müddət bütün meşə onun lovğalığına baş əyməli oldu.

Həmin payız küləklər çox sərt gəldi. Bütün meşənin qəddi bükülmüşdü sanki. Bircə lovğa palıd dimdik duran və az qala göylərə uzanan şax budaqları ilə təbiətə meydan oxuyurdu. Qamışlar külək istiqamətində əyildilər. Bunu görən palıd yenə onları məsxərəyə qoydu:

- Siz çox balaca və zəifsiniz. Yüngül küləkdən başınızı əyirsiniz. Bəs, güclü küləklər qarşısında necə tab gətirəcəksiniz?

Palıdın dediyi kimi oldu. Küləklər getdikcə şiddətləndi, lakin səngimək bilmədən, az sonra fırtınaya, qasırğaya çevrildi. Qamışlar dedi:

- Güclü palıd. Sən, gəl, bizə görə narahat olma. Biz ən güclü qasırğada belə başımızı onun əsdiyi istiqamətdə əyəcək, lazım olarsa, sulara qərq olacağıq. Lakin o dayandıqdan sonra yenidən quruyub, dirçələcəyik. Amma sən qürurlanaraq, bir az da belə dimdik dayansan, xilas ola bilməyəcəksən.

- Siz bu haqda düşünməyin. Məni heç nə yerimdən tərpədə bilməz. Mən bu meşənin ən güclü ağacıyam və nə olursa olsun, həmişə də belə dimdik qalacağam.

Qasırğa getdikcə şiddətləndi, bütün meşəni qara buludlar bürüdü. Tezliklə ən sərt halına keçdi. Qamışlar dərhal başlarını əyib, küləyin istiqamətində onun iradəsinə təslim olaraq, yellənməyə başladılar. Bu yolla köklərini qorumağa çalışdılar. Lakin fəxrlə daha dimdik durmağa çalışan və qasırğa ilə mübarizə aparan palıd buna tab gətirə bilmədi. Qasırğa onu köklərindən qoparıb çaya yuvarladı:

- Bu, ola bilməz. Yox, ola bilməz. Ola bilməz.

- Gördün, biz sənə dedik. Bəzən kor-koranə müqavimət göstərib, dağılıb, məhv olmaqdansa, təslim olmaq daha yaxşıdır.

Lovğa palıd çəlimsiz qamışların arasında sulara qərq oldu.

**Tərcümə etdi: Elcan SALMANQIZI**